Elm və Təhsil Nazirliyi tərəfindən həyata keçirilən "Elm və təhsil sahəsində ictimai təşəbbüslərin dəstəklənməsi" qrant müsabiqəsi çərçivəsində "Azərbaycan Jurnalistlər Şəbəkəsi" İctimai Birliyi tərəfindən "Elm və təhsil sahəsi üzrə media savadlılığının artırılmasına dəstək" layihəsinin icrasına başlanılır.

Layihənin əsas məqsədi elm və təhsil mövzuları üzrə ixtisaslaşmış, sahəvi biliklərə malik media nümayəndələrinin bu istiqamətdə peşəkar bacarıqlarının daha da təkmilləşdirilməsinə töhfə verməkdir.

Layihə çərçivəsində ölkə mediasında fəaliyyət göstərən jurnalistlərin iştirakı ilə ümumilikdə 10 interaktiv təlim sessiyasının keçirilməsi nəzərdə tutulur. Təlimlər qurum nümayəndələri və sahə üzrə mütəxəssislərin iştirakı ilə təşkil olunacaq.

Təlim sessiyaları zamanı aşağıdakı aktual mövzular üzrə təqdimat və müzakirələr aparılacaq:

- Təhsilin iqtisadiyyatı
- Məktəbəqədər təhsil
- Ümumi təhsil sisteminin əsasları
- Tədrisin məzmunu və dərslik siyasəti
- Yerli və beynəlxalq təhsil qiymətləndirmələri
- Ali təhsil və beynəlxalq reytinqlər
- Təhsildə rəqəmsallaşma
- Elmi islahatlar
- Təhsildə keyfiyyət təminatı
- Elmi-pedaqoji jurnalistika

Təlimlərdə hazırda ölkə mediasında fəaliyyət göstərən jurnalistlər iştirak edə bilərlər. Maraqlanan şəxslər qeyd olunan mövzularla tanış olduqdan sonra xüsusi müraciət forması vasitəsilə qeydiyyatdan keçməlidirlər. Qeydiyyatın ilkin mərhələsi 30 apreldə yekunlaşacaq.

Qeydiyyatdan keçmiş namizədlər arasından seçiləcək iştirakçılara təlimlərin vaxtı və məkanı barədə əvvəlcədən fərdi şəkildə məlumat veriləcək. Təlimlər may ayından başlayaraq ilboyu davam edəcək.

Müraciət üçün keçid: https://forms.gle/ytEHbohpYncsVcBS7

Sual və təkliflər üçün elektron poçt: mediaschool@ajn.az